# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 263/1** **26 may 2015-ci il**

**“Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamə barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2015-ci il 07 aprel tarixli 1/16 saylı “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamənin hazırlanması barədə əmrinə uyğun olaraq, Azərbaycan Respublikasında auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsində xüsusi xidmətləri olan, Auditorlar Palatasının ictimai həyatında və fəaliyyətinin genişləndirilməsində, beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynayan şəxslərin mənəvi həvəsləndirilməsi işinin təkmilləşdirilməsi məqsədilə, Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramov, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov və Sərbəst auditor, Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri E.İbrahimov tərəfindən hazırlanmış Əsasnamənin layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova və Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, 1 (bir) ay müddətində Əsasnamədə nəzərdə tutulmuş “Fəxri auditor” döş nişanı və onun vəsiqəsinin və “Fəxri fərman”ın eskizini hazırlayıb təqdim etsinlər.
3. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2004-cü il 20 avqust tarixli 136/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Fəxri Auditoru” adı haqqında Əsasnamə qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**